*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.183-190*

https://doi.org/10.62837/2025.4.183

**FLORA OSMANOVA**
Bakı şəhəri, V. Mirzəliyev adına 281 saylı tam orta məktəbin
Azərbaycan dili və ədəbiyyat müəllimi, filologiya üzrə fəlsəfə doktoru

# ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ BƏDİİ ƏSƏRLƏRİN DİL XÜSUSİYYƏTLƏRİNİN ÖYRƏDİLMƏSİ İMKANLARI

**Açar sözlər:** bədii dil, ədəbiyyat, dərs, əsər, kurikulum, şagird, inkişaf, yazıçı
**Ключевые слова:** художественный язык, литература, урок, работа, учебная программа, ученик, развитие, писатель
**Key words:** artistic language, literature, lesson, work, curriculum, student, development, writer.

**Xülasə**

Ədəbiyyat dərslərində bədii əsərlərin dilinin öyrənilməsi şagirdlərə mətndə dil hadisələrinin estetik dəyərini dərk etmək, sənətkarın yaradıcılığın bədii dünyasına müstəqil daxil olmaq bacarığının aşılanmasına şərait yaradır. Bədii əsərin sənətkarlıq xüsusiyyətlərinin təhlili zamanı şagirdlər ana dilinin heyrətamiz ifadəliliyinin sirlərini dərk edir, ədibin yaradıcılıq manerası haqqında dolğun təsəvvürə yiyələnirlər.

Hazırda məktəb təcrübəsinin öyrənilməsi göstərir ki, bir sıra hallarda dil dərslərində onun ən mühüm cəhəti - bədii əsərlərdə çox aydın və dolğun şəkildə təzahür edən estetik funksiyası diqqətdən kənarda qalır. Bir sıra müxtəlif növ qrammatik təhlillərin, qaydaların, testləşdirilmiş tapşırıqların üstünlük təşkil etdiyi dərslərdə şagirdlər ana dilinin zənginliyini və gözəlliyini görmürlər.

**FLORA OSMANOVA**

## Opportunities for teaching the linguistic features of literary texts in literature classes"

**Summary**

Studying the language of works of art in literature lessons allows students to understand the aesthetic value of linguistic phenomena in the text, to instill in the artist the ability to independently enter the artistic world of creativity. During the analysis of the artistic features of a work of art, students comprehend the secrets of the amazing expressiveness of their native language and get a complete picture of the writer's creative manner.

Currently, the study of school experience shows that in a number of cases, its most important aspect is ignored in language lessons - the aesthetic function, which is very vividly and fully manifested in works of art. Students do not see the richness

and beauty of their native language in lessons where many different types of grammatical analysis, rules and tested tasks prevail.

**Аннотация**

Изучение языка художественных произведений на уроках литературы позволяет учащимся понять эстетическую ценность языковых явлений в тексте, привить умение художника самостоятельно входить в художественный мир творчества. В ходе анализа художественных особенностей художественного произведения учащиеся постигают тайны удивительной выразительности родного языка и получают полное представление о творческой манере писателя.

В настоящее время изучение школьного опыта показывает, что в ряде случаев на уроках языка игнорируется важнейший ее аспект - эстетическая функция, которая очень ярко и полно проявляется в художественных произведениях. Ученики не видят богатства и красоты родного языка на уроках, где преобладает множество различных видов грамматического анализа, правил и проверяемых заданий.

Müasir ədəbiyyat dərslərində poetika və bədii əsərlərin dili məsələlərinin öyrənilməsi Azərbaycan dili və ədəbiyyat fənlərinin inteqrasiyasını aktual metodik problem kimi ön plana çıxarır. Ədəbiyyat fənn kurikulumunda bədii əsərlərin dilinin öyrənilməsi diqqət mərkəzində saxlanılmışdır: “Ədəbi əsərlərin öyrədilməsi zamanı şagirdlərin şifahi və yazılı nitqi tədricən cilalanır. Şagirdlər ana dilimizdə yazılmış əsərlərdə dilin gözəlliyini, dərin fikir və ifadə zənginliyini görüb-götürür. Təlim prosesində sənətkarın sözdən istifadə məharəti, nitqin bədiiliyi, ifadəliliyi, obrazlı sözün doğurduğu emosionallıq və fikir tutumu haqqında aydın təsəvvür yaradılır, bu əsasda şagirdlərin özünün nitqinin zənginləşməsi təmin edilir. Ədəbiyyat dərslərində nitq inkişafı üzrə aparılan işlər məktəblilərdə bədii sözə həssas münasibətin yaradılmasına, sözün, fikrin məna incəliklərini duymaq, ifadə etmək bacarığının formalaşdırılmasına imkan yaradır ”. [1]

Ədəbiyyat fənn kurikulumunda ümumi orta təhsil səviyyəsində şagirdlərin dil, üslubla bağlı aşağıdakı təlim nəticələrini əldə edilməsi tələbi qoyulmuşdur:

- əsəri ifadəli oxuyur;
- mətni bədii-emosional cəhətdən qüvvətləndirən sözlərin mahiyyətinin izah edir;
- yazılı nitqində məzmuna uyğun üslub müəyyənləşdirir; orfoqrafiya və orfoepiya qaydalarına əməl edir;
- söz ehtiyatından səmərəli istifadə edir, fikirlərini ardıcıl və məntiqi ifadə edir.

Tam orta təhsil səviyyəsi (X-XI siniflər) üzrə şagird:

- oxuduğu bədii nümunələri bədii-emosional və obrazlı qavradığını nümayiş etdirir;

- ayrı-ayrı mövzulara dair müvafiq üslublarda yaradıcı xarakterli yazılar təqdim edir;
- mövzu, süjet, kompozisiya, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi baxımından ədəbi nümunələr üzərində araşdırmalar aparır;

Ədəbiyyat fənn kurikulumunda ümumi orta təhsil pilləsində hər üç məzmun xətti - ədəbiyyat və həyat həqiqətləri, şifahi nitq və yazılı nitq üzrə iş söz sənətinin mahiyyətinin başa düşülməsinə, eləcə də insan həyatında, cəmiyyətdə müşahidə edilən mühüm hadisələrin dərk edilib dəyərləndirilməsinə səbəb olur.

Söz sənəti olmaqla ədəbiyyatın incəliklərinin, obrazların, bədii təsvir və ifadə vasitələrinin mənimsənilməsi müxtəlif ədəbi növdə və janrda olan əsərlərin mütaliəsinə maraq oyadır, mətnin ifadəli oxusu ilə bağlı bacarıqları inkişaf etdirir, şifahi və yazılı nitq üçün zəruri olan lüğət ehtiyatını zənginləşdirir. Şifahi nitq məzmun xətti ədəbi nümunələrlə bağlı fikirlərin obrazlı sözlərdən, bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə aydın, ardıcıl, məqsədyönlü və yığcam ifadə edilməsinə imkan yaradır.

Tam orta təhsil pilləsində ədəbiyyat və həyat həqiqətləri məzmun xətti ədəbiyyat nümunələrinin öyrənilməsi, müxtəlif informasiya mənbələrindən seçilmiş materialların mövzu, ideya, dil və üslub xüsusiyyətləri baxımından dəyərləndirilməsinə imkan yaradır. Şifahi nitq məzmun xətti ədəbi əsərlərin məzmun və ideyası ilə bağlı fakt və hadisələrə əsaslandırılmış münasibət bildirilməsini, bədii-obrazlı ifadələrdən istifadə olunmasını təmin edir, müxtəlif mənbələrdən toplanmış materiallara əsaslanmaqla müzakirələrdə ədəbi nailiyyətlərə müstəqil münasibət bildirilməsinə imkan yaradır. Yazılı nitq məzmun xətti müxtəlif üslublarda yazıların yazılmasını, görkəmli ədəbi şəxsiyyətlər, ədəbiyyat və mədəniyyət sahəsindəki nailiyyətlər barədə təqdimatların hazırlanmasını təmin edir.[1]

Göründüyü kimi, ədəbi əsərlərin dilini öyrənilməsi şagirdlərdə yüksək kommunikativ, dil, linqvistik, ədəbi, estetik və əxlaqi bacarıqların inkişafı, Azərbaycan milli özünüdərkinin və mənəvi dəyərlərin formalaşdırılması vəzifəsi ilə şərtlənir.

Dil ədəbiyyatın "ilkin elementi" və onun "əsas alətidir". Ədəbiyyatda söz rəsmdə rənglər, musiqidə səslər, rəqsdə hərəkətlər kimi eyni rol oynayır, lakin digər sənətlərin istifadə etdiyi maddi materiallardan fərqli olaraq, özünəməxsus xüsusiyyətlərə malikdir və ədəbiyyatı xüsusi, "ən yüksək" sənət növünə çevirir.

İnsan dilinin əsas xüsusiyyəti onun düşüncə və ünsiyyət vasitəsi olmasıdır. Dil bəşəriyyətin düşüncə tərzini, həyat təcrübəsini özündə cəmləşdirir; sözlə reallığın bütün hadisələrinə münasibətini ifadə edir.

Sözün idrak-qiymətləndirici gücü bədii əsərlərdə özünü parlaq şəkildə göstərir. Yazıçı sözdən istifadə edərək bizi əhatə edən dünyanın rənglərinin bütün zənginliyini göstərməyə və öz düşüncələrini, hisslərini, reallığın müxtəlif hadisələrinə münasibətini ifadə etməyə çalışır.

Bədii sözün təsir gücü necə əldə edilir? Yazıçı əsərlərini yaradarkən xalqının dilinə xas olan bütün təsvir və ifadə imkanlarından istifadə edir. Bu, həyatın obrazlı təsviri

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 4, 2025
Səh. 183-190

üsulu kimi sənətin özünəməxsus xüsusiyyətləri ilə bağlıdır. Əsərdə canlı insan obrazı, təbiət mənzərəsi yaratmaq, insanın ruh halını ifadə etmək üçün sənətkar bədii sözdən istifadə etməlidir.

Bədii ədəbiyyatın dili üçün zəruri olan əsas keyfiyyətlərindən biri də dəqiqlikdir. Bədii təsvir üçün təkcə obrazlılıq kifayət deyil, yazıçı ifadələrində həm də dəqiq olmalıdır.

Metodist alim Dursun Məmmədov bu problemlə bağlı yazır ki, bədii əsərlərin dil və üslubunun öyrənilməsi baxımından məktəbdə aşağıdakı məsələlərə diqqət yetirilməlidir:

1. Yazıçının dil haqqında fikirlərinin öyrənilməsi;
2. Ədibin öz əsərlərinin dili üzərində necə işləməsi haqqında məlumat verilməsi:
3. Sənətkarın proqram və dərslikdə olan konkret əsərinin dil və üslubunun öyrənilməsi;
4. Şagirdlərə bədii əsərlərin dil və üslubunu öyrətməklə Azərbaycan dilinin zənginliyinin, əzəmət və qüdrətinin başa salınması və doğma dilə hədsiz məhəbbət hissi tərbiyə edilməsi;
5. Bədii əsərlərin ideya-məzmununun, sənətkarlıq xüsusiyyətlərinin başa düşülməsində bədii dil və üslubdan istifadə edilməsi;
6. Bədii dilin öyrənilməsinin şagirdlərin estetik zövqünün formalaşmasına və bədii inkişafına təsiri;
7. Bədii dil haqqında şagirdlərdə düzgün anlayışın yaradılması.[2, s.51]

Göründüyü kimi, məktəbdə ayrı-ayrı yazıçıların dili və üslubu öyrənilərkən burada müəyyən bir sistem və qanunauyğunluğun gözlənilməsi lazımdır. Bu baxımdan bədii əsərə yanaşmada aşağıdakı cəhətlər də nəzərə alınmalıdır:

a) Sənətkarın ifadə etmək istədiyi fikir;
b) Bu fikir üçün yaratdığı bədii ifadə vasitələri (məcaz, təşbeh, epitet, peyzaj, lövhə və detallarda, üslubda yenilik, konkretlik);
c) İfadə etmək istədiyi fikir üçün işlətdiyi sözlərin sintaktik ahəngi (uyuşması).

Bu üç xüsusiyyət bədii təhlil zamanı əsas götürülməlidir

Bilal Muradov qeyd edir ki, orta məktəbdə ədəbi əsərlərin dilinin yaxud bədii dilin öyrənilməsinə aşağıdakı cəhətləri daxil edə bilərik:

1. Yazıçının hansı dil mənbələrində istifadə etməsi (ümumxalq dili, şifahi ədəbiyyat, yazılı ədəbiyyat, əcnəbi söz və ifadələr və s.).
2. Çətin söz və ifadələrin izahı (buraya həm lüğəvi mənası anlaşılmayan, həm də sözaltı mənası çətin başa düşülən söz və ifadələr daxildir).
3. Dili bədiiləşdirən qaydaların izahı.
4. Dünyagörüşündən, yaradıcılıq metodundan və fərdi üslubundan asılı olaraq, yazıçının dildən necə istifadə etməsi.
5. Ayrı-ayrı janrlardan, növlərdən asılı olaraq əsərin dil xüsusiyyətlərinin izahı.

Sinfin səviyyəsindən, dərsdə qarşıya qoyulan məqsəddən asılı olaraq, bu cəhətlərdən bəzisi ön plana çəkilib qabarıq şəkildə izah oluna bilər."[3, s.102]

S.Vurğunun "Vaqif" dramında dialoq Vaqiflə Qacar arasında ziddiyyətləri aşkar etmək üçün mühüm vasitədir. Dialoqun quruluşu, ritmi və funksiyası, eləcə də qarşıdurma motivli diqqəti cəlb edir. Dialoq hər iki obrazın münasibətlərindəki gərginliyin, barışmazlığın bədii ifadəsidir.

QACAR – (Vaqifə) – Şair, hökmdarın hüzurundasan.
VAQİF – Bunu sizsiz belə düşünürəm mən.
QACAR – Bəs baş əymədiniz?
VAQİF – Əymədim, bəli!
Əyilməz vicdanın böyük heykəli...
QACAR – Qılınclar toqquşub iş görən zaman
Neylər dediyiniz quru bir vicdan?
VAQİF – Vicdan dedikləri bir həqiqətdir –
Beşiyi, yuvası əbədiyyətdir...
QACAR – Bəs zindan necədir, qaranlıq zindan?
VAQİF – Soyuq məzara da zinətdir insan...

Göründüyü kimi, əsərdən verilən nümunədə dildən daha dərin semantik yükləri çatdırmaq üçün istifadə edilmiş, dialoq personajların daxili vəziyyətinin əksinin bədii ifadəsinə xidmət etmişdir. Nitqin simvolik xarakteri qarşıdurma anlayışının təhlili üçün mühüm elementə çevrilir.

Bədii əsərdə yazıçı sənətkarlığının mühüm bir nümunəsi də monoloqlardan məqsədyönlü istifadədir. Epik və ya lirik xarakterli, hərəkəti bir müddət yarımçıq qoyan və tamaşaçını düşünməyə sövq edən keçid kimi monoloq qədim dramaturgiyada meydana çıxmışdır. Dramın əsas məzmunu monoloqun üzə çıxarmaq məqsədi daşıdığı personajların emosional hərəkəti idi. Monoloqun xarakterik xüsusiyyətləri:

- Təsirli söz həcmi: yalnız böyük nitq monoloq adlanır.
- İdeoloji məzmun: monoloq aktual ideyaları ehtiva edir, qəhrəman və əsər üçün vacib olan suallar doğurur.
- Emosional gərginlik: çox vaxt monoloq qəhrəmanın pafoslu nitqi, onun emosional təcrübələrinin əksidir.
- Monoloqu çatdıran qəhrəmanın nitq, təfəkkür, mentalitet və həyat dəyərlərinin xüsusiyyətlərinin əks olunması.

Monoloq, qəhrəmanın nitqi olmaqla, sanki əsas hərəkəti dayandırır, oxucunun və ya tamaşaçının diqqətini monoloqda qaldırılan problemlərə yönəldir. V.Şekspir dünya dramaturgiyasının ən məşhur monoloqlarından biri olan "Olum, ya ölüm..." vasitəsilə çətin seçim qarşısında duran baş qəhrəmanın şübhələrini əks etdirmişdir.

Hüseyn Cavidin "İblis" faciəsində İblisin monoloqunda böyük faciələrə səbəb olan müharibələr, var-dövlət, sərvət hərisliyi iblisə uyan səltənət başçılarının, şər xislətli insanların bəd əməli kimi səciyyələndirilir:

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 183-190*

İblis!.. O böyük ad nə qədər calibi-heyrət!
Hər ölkədə, hər dildə anılmaqda o şöhrət.
Hər qülbədə, kaşanədə, viranədə İblis!
Həp Kəbədə, bütxanədə, meyxanədə İblis!
Hər kəs bəni dinlər, fəqət eylər yenə nifrət,
Hər kəs bana aciz qul ikən, bəslər ədavət.
Lakin bəni təhqir edən, ey əbləhü miskin!
Olduqca müsəllət sana, bil, nəfsi-ləimin,
Pəncəmdə dəmadəm əzilib qıvrılacaqsın,
Daim ayaq altında sönüb məhv olacaqsın.
Bənsiz də, əmin ol, sizə rəhbərlik edən var:
Qan püskürən, ataş savuran kinli krallar,
Şahlar, ulu xaqanlar, o çılğın dərəbəklər,
Altın və qadın düşkünü divanə bəbəklər.
Bin hiylə quran tilki siyasilər, o hər an
Məzhəb çıqaran, yol ayıran xadimi-ədyan;
Onlarda bütün fitnəvü şər, zülmü xəyanət,
Onlar duruyorkən bəni təhqirə nə hacət?!
Onlar, əvət onlar sizi çignətməyə kafi,
Kafi, sizi qəhr etməyə, məhv etməyə kafi...
Bən tərk edərim sizləri əlan nəmə lazim!
Hiçdən gələrək, hiçliyə olmaqdayım azim.
İblis nədir?
– Cümlə xəyanətlərə bais...
Ya hər kəsə xain olan insan nədir?
– İblis...

Məlumdur ki, bədii əsərdə qəhrəmanın şifahi obrazı olmadan oxucuda onun haqqında dolğun təsəvvür yaratmaq mümkün deyil. Sənətkar bunu əsərdə bədii portretin köməyi ilə müəllif edə bilər. Bədii portret aşağıdakı məqsədlərə xidmət edir:

• personajın müsbət və ya mənfi keyfiyyətlərini oxucuya göstərmək;
• qəhrəmanın sosial və maddi vəziyyətini nümayiş etdirmək;
• insanın dünyagörüşünü təsvir etmək;
• qəhrəmanın ziddiyyətli təbiəti varsa, onun daxili konfliktini açmaq;
• personajın digər insanlarla konfliktini nümayiş etdirmək, onların arasındakı ziddiyyətə diqqət yetirmək;
• qəhrəmanın daxili təcrübələrini, qorxularını çatdırmaq, arzu və istəklərini göstərmək;
• mənfi xarakterə rəğbət və ya ikrah hissini ifadə etmək;
• əsər boyu qəhrəmanın necə və niyə yaxşıya və ya pisə doğru dəyişdiyini göstərmək.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.183-190*

Nizaminin "Xosrov və Şirin " poemasının qəhrəmanı Şirin həm mənəviyyatca, həm də zahirən gözəldir. Əsərdə Şirinin əsil-nəcabəti, şəxsiyyətindən söz açan şair öz qəhrəmanına qüdrətli rəssam gözü ilə baxmış, onun gözəlliyini, hüsn-camalını epitet və təşbehlərlə vəsf etmişdir:

Sanki bir pəridir, pəri yox, bir ay,
Qəhrəman bir qızdır, başda kəlağay...
...Üzü nəzrin kimi, qoxusu nəsrin,
Dodağı Şirindir, adı da Şirin.
...Sinəsi, qolları büllur kimi tər,
Saçları müşktək ruhu məsr edər.

Bədii ədəbiyyatda qəhrəmanın psixoloji portretinin təsviri mühüm əhəmiyyət kəsb edir. Psixoloji portret sadəcə qəhrəmanın zahiri görünüşünün təsviri deyil, onun daxili aləminin xarici xüsusiyyətlərdən istifadə edərək təsviridir. Bu zaman psixoloji xüsusiyyətlər göz qabağındadır, çünki xarici məlumatlar və qəhrəmanın daxili dünyası tamamilə əlaqəlidir.

C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" povestində katdalıqdan silah kimi istifadə edən, kef-damaq, var-dövlət həsrəti ilə yaşayan, kəndlilərə zülm edən Xudayar bəyin bədii portreti onun şər xisləti barədə dolğun təsəvvür yaradır: "Xudayar bəyin ancaq otuz yeddi, otuz səkkiz sinni olar; artıq olmaz, bəlkə, əskik ola. Boyu ucadı, çox ucadı. Bunun ucalığından ötrü keçən vaxtda Xudayar bəyə bir ayama deyərdilər. Amma mən söz verdim ki, onun keçəcəyindən danışmayım. Qorxuram yalançı olam. Bəli, boyu ucadı, saqqalı, qaşları tünd qaradı. Üzü də qaradı, çox qaradı. Gözləri lap qaradı, bir tikə ağ yoxdu gözlərində. Belə ki, bəzi vaxt Xudayar bəy papağını basır gözünün önünə: papaq qara, gözlər qara, üz qara. Papağın altdan gözlər belə işarır ki, adamın canına vahimə ötürür. Pəs deyəsən ki, çim altından qurbağa baxır.

Bunlar hamısı ötər. Xudayar bəyin bir böyük qüsuru var. Burnu əyridi; əyridi, amma pis əyridi. Əyri də var, əyri var. Mən çox gözəllər görmüşəm ki, burunları əyridi, amma Xudayar bəyin burnu pis əyridi. Burnunun yuxarı tərəfindən bir sümük dikəlib. Sümük düzdü, amma aşağısının əti xoruz pipiyi kimi düşüb sol yana. Bilmirəm, anadanolmadı, ya sonra olubdu. Amma çox pis burundu, vəssəlam. Xudayar bəyə göyçək kişi demək olmaz".

Yazıçı əsərdə Xudayar bəyin şəhvət və var -dövlət toplamaq naminə hər cür bəd əməllərə əl atmasının, bədii portretinin təsviri ilə dövrün ictimai problemlərini, cəmiyyətin ümumi mənzərəsini, dərdlərini qabarıq şəkildə əks etdirmişdir.

Əsərdə bədii xüsusiyyətlər həmişə müəllif şərhləri ilə müşayiət olunmur. Bəzən yazıçı oxucunun təsvir olunan personaj haqqında öz nəticə çıxarmasına üstünlük verir. Odur ki ədəbiyyat dərslərində portretə xüsusi diqqət yetirmək lazımdır.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 183-190*

Bədii əsərlərin dilinin öyrənildiyi dərslər əsl Azərbaycan dilinin, mənəvi dəyərlərinin, mədəniyyətinin təbliğinə çevrilməlidir. Bu baxımdan ədəbiyyat dərslərində şagirdlərin aşağıdakı məsələlər üzrə tədqiqata cəlb edilməsi zəruridir:

1. Dil vahidlərinin, leksik, fonetik, sözyaratma, dilin qrammatik vasitələrindən istifadə qanunauyğunluqlarının, mətn formalarının müxtəlifliyinin öyrənilməsi;

2. Əsərin linqvistik strukturunun öyrənilməsi əsasında mətndəki fikirlərin ideya-bədii mənası üzərində müstəqil işləmək bacarıqlarının inkişafı, dilin təhlili zəminində obraz, süjet, kompozisiya, ideya ilə bağlı məsələlərin aydınlaşdırılması;

3. Məzmun və formanın bütün komponentlərinin qarşılıqlı əlaqədə dərk edilməsi və əsərin söz sənəti hadisəsi kimi dərk edilməsi; ana dilinə yaradıcı yanaşma, yazıçıların yaradıcılıq özünəməxsusluğunu qiymətləndirmək, öz nitqinə diqqətli və həssas olmaq, fikir və hisslərinə müvafiq ifadə tərzi tapmaq, öz mətnlərini yaratmaq bacarığı aşılanması.

Yazıçı sənətkarlığının , əsərdə dilin bədii təsvir və ifadə vasitələrinin rolunu, obrazlı və bədii nitq yaratmağın "sirlərinin" öyrənilməsi ədəbiyyat təliminin mühüm problemlərindəndir. Ədəbiyyat dərslərində yazıçı sənətkarlığı haqqında söhbət dildən başlamalıdır. Məhz müəllifin şifahi təsvir, ifadə sənətkarlığı diqqət mərkəzində olmalıdır, çünki ədəbi obrazların yaradılması ona əsaslanır və ondan asılıdır.

Ədəbiyyat təlimi prosesində bədii əsərlərin dilinin öyrənilməsi şagirdlərə bədii mətndə dil hadisələrinin estetik dəyərini dərk etmək, sənətkarın yaradıcılığın bədii dünyasına müstəqil daxil olmaq bacarığının aşılanmasına şərait yaradır. Bədii əsərin sənətkarlıq xüsusiyyətlərinin təhlili zamanı şagirdlər ana dilinin heyrətamiz ifadəliliyinin sirlərini dərk edir, ədibin yaradıcılıq manevrası haqqında dolğun təsəvvürə yiyələnirlər.

**Ədəbiyyat**

1.Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər). https://www.arti.edu.az/nodupload/editor/files/2%20%C6%8Fd%C9%99biyyat-kurikulum.pdf

2.Məmmədov D. Ədəbi əsərlərin sənətkarlıq xüsusiyyətlərinin öyrədilməsi metodikası. Bakı:Maarif, 1977.120 s.

3.Muradov B. Orta məktəbdə ədəbi əsərlərin öyrədilməsi.Bakı: Maarif, 1992. 202 s.

4.Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2016. 450 s.

**Rəyçi: Rəyçi: pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim Bilal Həsənli**